# Azərbaycanda inklüziv təhsilin yaranması

**Aytən Nağızadə**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aytanagizada@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** inklüziv təhsil, cəmiyyət, məktəb, kurikulum, sağlamlıq, xüsusi qayğı, inteqrasiya, ünsiyyət

**Ключевые слова:** инклюзивное образование, общество, школа, куррикулума, здоровье, особый уход, интеграция, общение

**Key words:** inclusive education, society, school, curriculum, health, special care, integration, sociability

Dünyanın hər bir yerində, ictimai inkişafın bütün mərhələlərində cəmiyyətin təhsillə üzvi bağlılığı olmuşdur. İnkişaf etməkdə olan ölkələrdə, həmçinin Azərbaycanda inkişaf proseslərinin qanunauyğunluğu, ritmi və tərkibi əvvəlki modernizasiya təcrübələrindən fərqli olacaqdır. Dünyada baş verən yeniliklərə köklənən bir cəmiyyət daim dəyişir, müasirləşir. Modern cəmiyyət təkcə fiziki və əqli baxımdan sağlam vətəndaşlarının inkişafı məsələləri ilə məşğul olmur. Həm də bu cəmiyyət xüsusi qayğıya ehtiyacı olan (XQE) vətəndaşlarının da inkişaf və təhsili haqqında düşünür.

Müstəqilliyin əldə olunduğu dövrdən bəri XQE şəxslərin bütün təhsil pillələri üzrə maneəsiz təhsil ala bilməsi üçün müxtəlif addımlar atılmaqdadır. Lakin XQE şəxslər uzun illərdir ki, təhsil almaqla bağlı bir sıra çətinliklərlə üzləşirlər (1.3). Xüsusi təhsil müəssisələrində belə şəxslərə təhsil verilsə də, bunun da özünəməxsus cəhəti vardır. Belə müəssisələrdə təhsil alan şəxslər sonradan ictimai mühitə inteqrasiya olmaqda xeyli çətinlik çəkirlər. XQE şəxslərin təhsildən kənar qalması onların iş imkanlarının (perspektivlərinin) də zəifləməsinə gətirib çıxarır. Nəticədə həm onlar şəxsi inkişaf imkanlarından məhrum olur, həm də cəmiyyət insan kapitalını itirir.

Lakin son dövrlərdə bütün dünyada o cümlədən, Azərbaycanda da ciddi irəliləyişlər əldə edilmişdir. Cənab Prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun dəstəyi ilə xüsusi təhsil müəssisələrinin genişləndirilməsi, dəstəkləyici texnologiyaların təhsil sisteminə gətirilməsi, adekvat kurikulumun hazırlanması nəticəsində artıq XQE uşaqlar daha rahat şəraitdə təhsil ala bilirlər. Diqqəti cəlb edəcək yenilik isə ölkəmizdə inklüziv təhsil anlayışının geniş şəkildə yayılmasıdır. Belə ki, “hamı üçün təhsil” strategiyasının məntiqi davamı kimi qiymətləndirilən bu fəlsəfəyə görə, müxtəlif xüsusiyyətləri və ehtiyacları olan uşaqlarla sağlamlıq problemi olmayanlar birgə tədrisə cəlb edilərək eyni sinifdə təhsil almalıdırlar. Məhz belə bir mühitdə XQE şəxslərin cəmiyyətə inteqrasiyası düzgün təmin edilə bilər.

Azərbaycanda “İnklüziv təhsil layihəsi”nin icrasına 2005-ci ildən start verilmişdir. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli 20 № li qərarına əsasən “Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili”nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir. Proqram çərçivəsində 17 ümumtəhsil məktəbi 13 uşaq bağçasında 200 dən çox XQE uşaq inklüziv təhsilə cəlb olunmuşdur. Məktəbəqədər və ibtidai təhsil pillələrində inklüziv təhsilin tətbiqi üçün metodik

vəsaitlər hazırlanmışdır. İnklüziv təhsil müəllim hazırlığı kurrikulumlarına və ixtisasartırma proqramlarına daxil edilmişdir (2, 7).

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda xüsusi təhsil, evdə təhsil və inteqrasiyalı təhsilin təşkil olunması ilə bağlı normaların nəzərdə tutulmasına baxmayaraq, inklüziv təhsilə dair müddəalar yer almamışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2015-ci il 19 yanvar tarixli 995 № li sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 1.4-cü bəndində XQE şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi nəzərdə tutulmuşdur. 2017-ci ildə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

İnklüziv təhsilin XQE uşaqlar üçün faydalarına aşağıdakıları göstərə bilərik. Belə ki,

- Xüsusi qayğıya ehtiyacı olan uşaqlar kollektivə uyğunlaşır, cəmiyyətə inteqrasiya edir.
- Onlarda özünə inam hissi formalaşır.
- Onlar cəmiyyətin digər üzvləri kimi bərabər hüquqlu şəxsiyyət kimi formalaşır.
- Gələcəkdə onların məşğulluq kimi problemi də aradan qaldırılmış olur.

İnklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də XQE insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir (3.3).

Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud, kimsəsiz, valideyn himayəsindən məhrum olan, cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüş, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri və xüsusi məktəblər əsaslı təmir edilmiş və ya yenidən qurulmuş, həmin müəssisələr müasir tələblərə cavab verən inventar və avadanlıqlarla təchiz edilmişdir

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edilmişdir. Nəticə etibarilə əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçmişdir. Bu mərhələdə xüsusi təhsil sahəsində köklü islahatların aparılması, əlilliyi olan uşaqların təhsilə cəlb olunması qaydalarının yenilənməsi, onların ümumi təhsil müəssisəsində inklüziv təhsilə cəlb edilməsi və inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi nəzərdə tutulmuşdur.

2015-2016-cı tədris ilindən əlilliyi olan uşaqların ümumi təhsil müəssisəsində digər uşaqlarla birgə təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanılmışdır. İnklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı tədbirlər dörd eksperimental məktəbdə uğurla sınaqdan keçirilir.

Sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb olunması qaydalarının, həmçinin qiymətləndirmə testlərinin olmaması səbəbindən psixoloji-tibbi-pedaqoji komissiyalar tərəfindən rəy verilməsi zamanı çətinliklər yaranır. Hazırda psixoloji-tibbi-pedaqoji komissiyaların fəaliyyətinin əsas istiqaməti uşaqların təhsil imkanlarının olubolmaması ilə bağlı seçim etməkdir. Lakin uşaqların təhsil hüquqlarını təmin etmək üçün psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən onların təhsil ehtiyacları müfəssəl qiymətləndirilməli və hər bir uşaq üçün kompleks yanaşmanı təmin edən fərdi inkişaf planı hazırlanmalıdır. Bu səbəbdən də psixoloji-tibbi-pedaqoji komissiyaların fəaliyyətində

dəyişikliklər edilməlidir.

**Məqalənin aktuallığı.** Dünyada, eləcə də ölkəmizdə baş verən qlobal inkişaf, insanların elmə, təhsilə verdiyi dəyərin gündən-günə artması xüsusi qayğıya ehtiyacı olan şəxslərin də təhsilə cəlb olunmasını, onlar üçün inklüziv təhsilin təşkilinin vacibliyini zəruri sayır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün yaradılan mövcud şəraitdən, qəbul olunmuş sərəncam, müddəalar və s.-dan bəhs olunur. Həmçinin, prosesin səmərəli təşkilinə zəmin yaradan faktorlar ümumi şəkildə diqqətə çatdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də tədqiqatçılar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə çıxış imkanları: real vəziyyət, beynəlxalq praktika və təkliflər. Bakı, 2016.
2. "İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr". V Elmi-praktik konfransın məqalələr toplusu. Bakı, 2011.
3. İnklüziv siniflərdə təlimin təşkili. Bakı, 2018.

**А. Нагизаде**

## Создания инклюзивного образования в Азербайджане

## Резюме

Современные возможности для развития инклюзивного образования в сфере образования в нашей стране создали новые возможности, и многие успешные шаги в этом направлении все еще предпринимаются. Как общество, наша миссия - быть более внимательными к таким людям и поддерживать их интеграцию в общество.

**A. Naghızada**

## Foundation of inclusive education in Azerbaijan

## Summary

Rapid development in the field of modern education gave new chances for the development of inclusive education in our country and in this way there are still lots of successful results. As citizens of this society, our role is to be more attentive towards such kind of people and to support their integration to the society.

**Redaksiyaya daxil olub:** 14.05.2019